1_Layout 1 29.06.2026 9:20 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN
DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 12 (724)

30 iyun
2026-cı il

Qəzet 1992-ci il
dekabrın 16-dan
nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## MÜZƏFFƏR SƏRKƏRDƏ, QALİB ORDU DÖVLƏTÇİLİYİMİZİN, SUVERENLİYİMİZİN VƏ ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜN ETİBARLI QARANTI

**"Azərbaycan" qəzetinin müxbiri Vahid Məhərrəmovun müəllifi olduğu "Müzəffər sərkərdə, qalib ordu dövlətçiliyimizin, suverenliyimizin və ərazi bütövlüyümüzün etibarlı qarantı" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

26 iyun tariximizə iftixar və qürur dolu gün kimi yazılıb. 108 il əvvəl - 26 iyun 1918-ci ildə yenicə müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə əlahiddə Azərbaycan korpusu yaradılıb.

Həmin il mayın 28-də qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə qeyd olunurdu ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Avqustun 1-də Azərbaycanın Hərbi Nazirliyi təsis olundu. İlk müdafiə naziri Xosrov bəy Sultanov təyin edildi. Dekabrın 25-də isə general Səməd bəy Mehmandarov hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin olundular.

Yaradıldığı ilk günlərdən silahlı qüvvələrin quruculuğuna başlanıldı. Qısa müddət ərzində zəruri işlər görüldü, uğurlu addımlar atıldı. Sonrakı tarixi hadisələr göstərdi ki, yenicə yaradılmasına baxmayaraq, Milli Ordu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını, həmçinin ətraf qəsəbə və kəndləri erməni-bolşevik işğalından azad etməyi bacardı. Sonrakı illərdə də ordu quruculuğu istiqamətində mühüm işlər görüldü. Azərbaycanda ilk hərbi parad 1919-cu ildə Bakıda indiki Muzey Mərkəzinin yerləşdiyi ərazidə keçirildi.

Təəssüflər olsun ki, 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti qan üstə qurulmuş bolşevik hökumətinin hücumu nəticəsində süquta uğradı. Böyük əziyyətlər bahasına yaradılmış və formalaşdırılmış Azərbaycan xalqının qürur və iftixar mənbəyi olan dövləti, o cümlədən ordusu ləğv edildi. Onun yaradılmasında və formalaşmasında böyük xidmətləri olan generalların və zabitlərin əksəriyyəti Nargin adasında güllələndi və həmin günlər tariximizin səhifələrinə qanla yazıldı.

Əvəzində əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş Azərbaycan Silahlı Qüvvələrinin tarixi ənənələri sonrakı illərdə bərpa olundu, yaşadıldı və uğurla davam etdirildi. Bu, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün oldu. Ulu Öndərin rəhbərliyi altında ordu quruculuğu istiqamətində aparılan işlər, həyata keçirilən uğurlu islahatlar ölkəmizdə mütəşəkkil, qüdrətli ordunun yaradılması üçün əlverişli şərait yaratdı.

1991-ci ildə yaranmış tarixi şəraitdən istifadə edən Azərbaycan xalqı 1920-ci ildə itirilmiş dövlət müstəqilliyini bərpa etdi. Amma ölkəmiz bir sıra problemlərlə üz-üzə qaldı. Havadarlarına arxalanan Ermənistanın Azərbaycan torpaqlarını işğal etmək üçün Qarabağa və Şərqi Zəngəzura etdikləri silahlı



hücumlar müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz üçün ciddi problemlər yaratdı. Ölkə ərazisinə olan hərbi təcavüzlərin qarşısının alınması üçün ordunun yaradılması və formalaşdırılması günün ən zəruri məsələsinə çevrildi.

1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında dövlətin və dövlətçiliyin əsas sütunlarından biri olan peşəkar ordunun yaradılması üçün uğurlara hesablanmış islahatlara başlanıldı. Ümummilli Liderin qətiyyətli siyasi iradəsi, diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrin formalaşmasında böyük uğurlar əldə olundu.

Ulu Öndər hələ 1969-cu ildə Mərkəzi Komitənin birinci katibi seçiləndən sonra bu böyük şəxsiyyətin müstəsna xidmətləri sayəsində respublikada hərbi kadrların hazırlanması prosesində uğurlu addımlar atıldı. Ümummilli Liderin təşəbbüsü ilə 1971-ci ildə Azərbaycanda hərbi kadrlar hazırlayan Cəmşid Naxçıvanski adına Hərbi Lisey açıldı. Bundan sonra Heydər Əliyevin fədakarlığı sayəsində azərbaycanlı gənclərin həm Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində təhsil almalarına, həm də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmalarına şərait yarandı. Azərbaycanlı gənclərin hərbi sahəyə marağı daha da artdı.

Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi. Həmin ildən etibarən bu tarix ölkəmizin və xalqımızın hərbi qüdrətinin təntənəsi kimi qeyd olunur.

Azərbaycanda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən yeni inkişaf mərhələsinə qədəm qoydu. Ulu Öndərin ordu quruculuğu siyasətini layiqincə davam və inkişaf etdirən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin həm peşəkarlığının, həm də şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının daha da artırılmasına, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatına böyük önəm verildi. Məhz elə bunun da nəticəsində dövlətimizin başçısının diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddət ərzində regionun ən qüdrətli ordusuna çevrildi.

2016-cı ilin Aprel döyüşləri rəşadətli Azərbaycan Ordusunun tarixinə böyük hərflərlə yazıldı. Həmin döyüşlər zamanı işğalçıların qəfil hücumlarının qarşısını alarkən Silahlı Qüvvələrimiz düşməndən qat-qat güclü olduğunu bir daha sübut etdi. Ermənistan ordusunun təxribatlarına qətiyyətlə cavab verən ordumuz sürətli, çevik, uğurla başa çatan əks-hücum əməliyyatı ilə düşmənə sarsıdıcı zərbə vurdu. Ermənistan silahlı qüvvələri bu döyüşlərdə böyük itkilər verdi. Qazanılan qələbə nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Bir sıra əlverişli yüksəkliklər, o cümlədən Lələtəpə yüksəkliyi Silahlı Qüvvələrimizin nəzarətinə keçdi. Həmin ərazilərdə Azərbaycan bayrağı dalğalandı. Aprel döyüşləri xalqımıza böyük sevinc bəxş etdi. Xalqımızın ordusuna sevgisi, məhəbbəti və inamı daha da artdı.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında keçirilən təntənəli hərbi paradda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımıza böyük sevinc bəxş edən Aprel döyüşlərindən bəhs edərək demişdir: "2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlandı. Azərbaycan Ordusunun cəsur zabit və əsgərləri Müzəffər Ali Baş Komandanın sərkərdəliyi altında düşmənə sarsıdıcı zərbələr vurdu, ağır itkilərə məruz qoydu. Onlarla, yüzlərlə zirehli, zirehsiz texnikasını vurub sıradan çıxardı. 44 gün ərzində - sentyabrın 27-dən noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad olundu.

Rəşadətli Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsi noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalamaları ilə yekunlaşdı. Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları Azərbaycana döyüşsüz təhvil verildi. 44 günlük Vətən müharibəsindən əvvəl özünü "məğlubedilməz" adlandıran Ermənistan silahlı quldurları qüdrətli Azərbaycan Ordusunun qarşısında diz çökdü.

Azərbaycan Ordusunun zabit və əsgərlərinin qəhrəmanlığı, igidliyi sayəsində İkinci Qarabağ müharibəsində qazanılmış qələbənin şərəfinə 2020-ci il dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə ölkəmizin paytaxtında xalqımıza böyük qürur və iftixar bəxş edən Zəfər paradı keçirildi. Dövlətimizin başçısının 2018-ci ildə Silahlı Qüvvələrimizin yaradılmasının 100 illiyi münasibətilə keçirilən paradda dediyi kimi, düşmənin ələ keçirilən silah-sursat və texnikası ilə yanaşı, işğaldan azad olunan ərazilərimizdə qaldırılan dövlət bayraqlarımız da Zəfər paradında nümayiş etdirildi.

Daim gücünü, qüdrətini artıran Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-20-də Qarabağda erməni separatçılarının müntəzəm olaraq törətdikləri təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin tör-töküntülərinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə, bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin edilməsi məqsədilə lokal xarakterli antiterror tədbirlərinə başladı. 23 saatdan bir qədər çox davam edən uğurlu antiterror tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri dəqiq zərbələrlə məhv edildi.

Bu gün şanlı Azərbaycan Ordusunun daha da təkmilləşdirilməsi, formalaşdırılması, güclənməsi, şəxsi heyətin döyüş hazırlığının daha da artırılması məqsədilə müntəzəm olaraq zəruri və müasir dövrün tələblərinə uyğun müvafiq islahatlar həyata keçirilir. Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində mühüm addımlar atılır. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə 2022-ci ildə Milli Müdafiə Universiteti yaradılmışdır. Universitetin başlıca vəzifələrindən biri Azərbaycan Ordusunda ali hərbi təhsilin bütün səviyyələri və əlavə təhsil proqramları üzrə ixtisaslı kadrlar hazırlamaqdır. Yüksək peşəkarlığa malik olan zabit kadrlarının hazırlanması isə təbiidir ki, gələcək uğurlardan xəbər verir, yeni zəfərlərə yol açır.

Hamımızın fəxr etdiyi və qürur duyduğu Azərbaycan Silahlı Qüvvələri bu gün Qafqazda ən müasir ordu hesab olunur. Bütün qoşun növlərimiz potensial rəqiblə mübarizə aparmaq, qələbə qazanmaq, ölkəmizin ərazi bütövlüyünü, xalqımızın və dövlətimizin təhlükəsizliyini qorumaq gücündədir. Gündən-günə qüdrətlənən Azərbaycan Ordusu müstəqil Azərbaycanın etibarlı keşikçisi və suverenliyinin, dövlətçiliyinin və ərazi bütövlüyünün qarantıdır.

## DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ XİDMƏTƏ QƏBUL ÜÇÜN NÖVBƏTİ SIRA BAXIŞI KEÇİRİLİB





Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 19-da respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 158 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 29.06.2026 13:04 Page 1



# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN HƏRBİ İNSTİTUTUNDA NÖVBƏTİ BURAXILIŞ OLUB



Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunda 2025-2026-cı tədris ilinin buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.



Tədbirdə respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Nazir müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov Hərbi İnstitutun inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib. O, məzunların buraxılış mərasiminin Hərbi İnstitutun həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdırıb.



Nazir Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin əsas struktur qurumlarından olan Daxili Qoşunların döyüş hazırlığının yüksəldilməsinin, müasir silah və texnika ilə təminatının, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən hər zaman nəzarətdə saxlanıldığını xüsusi qeyd edib. Göstərilən ali diqqət və ardıcıl dəstək nəticəsində Daxili Qoşunların qarşıya qoyulan istənilən xidməti-döyüş tapşırığını uğurla və layiqincə yerinə yetirməyə qadir olduğunu bildirib.



Daxili işlər naziri qoşunların peşəkar kadr özəyinin formalaşmasında, şəxsi heyətin döyüş hazırlığında əldə etdiyi yüksək nəticələrə görə Türkiyə Silahlı Qüvvələrinin, o cümlədən Jandarm Baş Komandanlığının rolunu xüsusi vurğulayıb.

O, bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda formalaşmasında əzmkar fəaliyyətini yüksək dəyərləndirib, Daxili Qoşunların Hərbi İnstitutunun bu gün öz təyinatına uyğun olaraq qoşunlar üçün yüksək ixtisaslı, peşəkar zabit heyətinin hazırlanması ilə bağlı çox böyük işlər gördüyünü, bu mühüm vəzifənin gələcəkdə də layiqincə yerinə yetiriləcəyinə əminliyini ifadə edib.

Nazir V.Eyvazov gənc zabitləri, onların valideynlərini və yaxınlarını Hərbi İnstitutu uğurla bitirmələri münasibətilə təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil ocağının rəhbərliyinə, zabit-müəllim heyətinə təşəkkürünü bildirib.






Kursant Hüseyn Bilişov onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına, DİN rəhbərliyinə və Hərbi İnstitutun zabit-müəllim heyətinə minnətdarlığını çatdırıb, Vətən, dövlət və xalq qarşısında vəzifələrini layiqincə yerinə yetirəcəklərini, hərbçi şərəfini hər zaman uca tutacaqlarını bildirib.

Sonra döyüş bayrağı üçüncü kursun kursantlarına təhvil verilib.

Gənc zabit Ömər Səfərli “Yaş kötüyü”nə rəmzi xatirə lövhəsini vurub.

Tədbirin sonunda daxili işlər naziri V.Eyvazov Hərbi İnstitutu fərqlənmə və “baş leytenant” rütbəsi ilə bitirmiş məzunlara diplomları təqdim edib.

Gənc zabitlər təntənəli marşla tribunanın qarşısından keçiblər.

**DİN-in Mətbuat xidməti**

# İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL (OMBUDSMAN) APARATININ ƏMƏKDAŞLARI DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏLƏRİNDƏ OLUBLAR

“Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatının “Ombudsman təsisatı və hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı aparılan işlər” mövzusunda, həmçinin insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar Daxili



İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi İnstitutunun və hərbi hissələrinin şəxsi heyəti ilə 2026-cı ildə keçirilməsi nəzərdə tutulan birgə görüşlərə dair tədbirlər planı”na əsasən, iyunun 22-də Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşları Fəzail Həsənov, Rəşad İsmayılov və Daxili Qoşunların Baş İdarəsinin şəxsi heyət üzrə idarə rəisinin müavini - mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Zamin Rəsulov 12318 və 25032 saylı hərbi hissələrdə olublar.

Görüşün keçirilməsində əsas məqsəd İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının hərbi qulluqçuların hüquq və azadlıqlarının qorunub saxlanılması sahəsində həyata keçirdiyi fəaliyyət haqqında şəxsi heyətə ətraflı məlumat vermək, hərbi qulluqçuların hüquqi baxımdan maarifləndirilmələrini təmin etmək və onları maraqlandıran sualları cavablandırmaq olub.

İlk olaraq, hərbi hissələrin ərazisi ilə tanış olan F.Həsənov daha sonra tibb məntəqəsinə, ərzaq anbarına, əşya anbarına, yeməkxanaya və bölmələrin kazarmalarına, əmlaksaxlama otağına ümumi baxış keçirib. Hərbi hissələrin



şəxsi heyətilə görüşən Ombudsman Aparatının əməkdaşları onlara xidmətə münasibətləri, ailə vəziyyətləri ilə əlaqədar suallar ünvanlayıblar. İnsan hüquqları, bu əsnada hərbi



qulluqçuların hüquqları, Ombudsman Aparatının bu istiqamətdə fəaliyyəti barədə məlumat verilib, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparılıb.

Qeyd edək ki, müvafiq tədbirlər planına əsasən, ilin sonunadək Daxili Qoşunların digər hərbi hissələrində Ombudsman Aparatının əməkdaşlarının şəxsi heyətlə görüşlər keçirmələri nəzərdə tutulur.

**Mətbuat xidməti**

# ŞƏXSİ HEYƏT YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI NÜMAYİŞ ETDİRİR

99713 saylı hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkının, anbarlarının, eləcə də Daxili Qoşunların döyüş bayrağının və Daxili İşlər Nazirliyinin Maddi-Texniki Təminat



Baş İdarəsinə bilavasitə tabe olan mərkəzi anbarlarının mühafizə və müdafiəsi komendant bölüyü tərəfindən təmin olunur. Hərbi hissə




komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölmənin şəxsi heyəti ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir. Şəxsi heyət yüksək döyüş hazırlığı və nümunəvi hərbi intizam nümayiş etdirir.

Hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Onların sağlamlıqlarını, mənəvi-psixoloji durumlarını əsas şərt kimi dəyərləndirən bölük komandiri baş leytenant Cavid Xanlarlı digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi. Məşğələlərin şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına təkan verdiyini nəzərimizə çatdırdı.

Xidmətə cəlb edilməzdən əvvəl müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır: “Ümumiyyətlə, xidmətə cəlb edilənədək hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin hərbi hissənin komandirinin tərbiyə işləri üzrə müavini və tərbiyə işləri üzrə bölmənin zabitləri də xidmətə cəlb olunan şəxsi heyətlə




fərdi qaydada söhbət aparır. Komendant bölüyündə saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliəsi, stolüstü oyunların oynanılması da diqqət mərkəzində saxlanılır”.

Komendant bölüyündə xidmətin təşkilində, hərbi qulluqçuların xidmətə hazırlanmasında, qarovulun yoxlanılmasında bölük komandirinin müavini baş leytenant Nihad Hacıyevin, onların mənəvi-psixoloji durumlarının yüksək səviyyədə saxlanılmasında isə bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Əli Əliyevin yaxından iştirak etdiyini deyən baş leytenant C.Xanlarlı hər iki zabitin bacarıqlı və çalışqan olduğunu bildirdi.

Bölük komandiri layiqli xidmətilə şəxsi heyətə örnək olan hərbi qulluqçulardan leytenant Kamran Nəsibov, gizir Zərbalı Cəbiyev, çavuş İmaməli Cahangirli, əsgərlər Elşən İsmayılov, Tacir Hüseynzadə, Ramazan Yeznayevin adlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

3_Layout 1 29.06.2026 9:21 Page 1



## HƏRBİ QULLUQÇULAR QUBA RAYONUNDA YAŞAYAN ŞƏHİD AİLƏSİNİ ZİYARƏT EDİBLƏR

44 günlük Vətən müharibəsində qazandığımız böyük hərbi zəfərlə torpaqlarımızın işğal altında qalmasına son qoyuldu, yüz minlərlə məcburi köçkünün üzərindən bu ad götürüldü. Dünya hərb tarixində xüsusi yer tutan qaliblərin siyahısına ölkəmizin də adı yazıldı. Azərbaycanın parlaq nümunəsi bizim kimi hərbi təcavüz faciələrini yaşamış xalqlara ümid verdi, onların mübarizə yoluna işıq saldı. Şəhidlərimiz, qazilərimiz bütöv və bölünməz Azərbaycanın mənəvi ruhunun, hərbi ənənələrinin daşıyıcıları olaraq düşmənə qarşı mətinliklə vuruşdular.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 44 günlük Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularından biri də çavuş Ömərov Orxan İmran oğludur. Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır.

16073 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən xüsusi təyinatlı dəstənin bir qrup hərbi qulluqçusunun Daxili Qoşunların şəhidi çavuş O.Ömərovun Quba rayonunun Qonaqkənd qəsəbəsində yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür. İlk olaraq hərbi qulluqçularımız tərəfindən şəhidin məzarı ziyarət olunub. Şəhadətə ucalmış xüsusi təyinatlının xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub.

Qeyd edək ki, Orxan 1991-ci il oktyabrın 17-də Quba rayonunun Qonaqkənd qəsəbəsində doğulub. Ömərovlar ailəsinin ortancıl və yeganə oğul övladı idi. Atası İmran Ömərov 2000-ci ildə dünyasını dəyişib. Orxanın Gülzədə və Albina adlı bacıları var.

Hərbi qulluqçularımız şəhidin ailə üzvləri ilə görüşüblər. Söhbət zamanı onlar Orxanın ömür yolu barədə xatirələrini danışıblar. Bildiriblər ki, o, öz ailəsinin, nəslinin, el-obasının layiqli yetirməsi kimi yaddaşlarda qalıb. 1941-1945-ci illərdə alman faşist ordusuna qarşı qəhrəmancasına döyüşərək 3 ordenə layiq görülmüş babası Aslan Aslanovun adını daşıyan qəsəbə orta məktəbinin məzunu olub, çalışqanlığı, zəkası, qeyri-




adi istedadı, yaradıcı dünyagörüşü ilə yaşıdlarından seçilib. Diqqətçəkən bədii təxəyyülünün bəhrəsi olan müxtəlif mövzulu şeirləri ərsəyə gətirib. Hələ məktəbli olduğu vaxtdan idmanla da maraqlanıb, fiziki hazırlığına ciddi yanaşıb. Ailə üzvlərinin dediklərinə görə, Orxan xaraktercə dürüst, xeyirxah, cəsarətli, ünsiyyət qurmağı bacaran, dostluğa dəyər verən, ailəcanlı gənc olub.

2010-cu ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində hərbi xidmət keçib. 2011-ci ilin iyul ayında hərbi xidmətdən tərxis olunub. Hərbi xidmətdən qayıtdıqdan sonra bir müddət mülki sahələrdə işləyib, halal zəhməti ilə ailəyə maddi köməyini əsirgəməyib.

2013-cü ilin mart ayının 29-da öz arzusu ilə Daxili Qoşunların tərkibində müddətdən artıq həqiqi hərbi xidmətə başlayan Orxan Daxili Qoşunların sıralarında öncə 17072, sonra 17074 və 67987 saylı hərbi hissələrdə müxtəlif vəzifələrə təyin edilib. Qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirərək komandanlığın etimadını doğruldub. Dəfələrlə mükafatlandırılıb. Silahdaşlarının hörmətini qazanıb. Təhkim olunan silahların xüsusiyyətlərini mükəmməl bilib. Vətənpərvər əqidəli hərbi qulluqçu olaraq daim özünü döyüş sınaqlarına hazırlayıb.

Silahdaşları da Orxanın xidmət və döyüş yolu barədə xatirələrini bölüşüblər. Onun özünə qarşı tələbkar, nizam-intizamlı, bacarıqlı, yoldaşlıqda etibarlı, istənilən çətinliyin öhdəsindən gələn, xidmətə can yandıran, icraçılığında heç kimdən geri qalmayan, təmkinli, iradəli, ayıq-sayıqlığı, əzmkarlığı baxımından fərqlənən hərbi qulluqçu olduğunu, təlimlərdə çeviklik, məharət nümayiş etdirdiyini, atıcılıq üzrə yarışlarda uğurlu nəticələr göstərdiyini vurğulayıblar.

Söyləyiblər ki, 2020-ci ilin oktyabr ayının ortalarına yaxın Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinin hərbi qulluqçuları ilə birlikdə döyüşlərə qatılan Orxanın döyüş yolu Füzuli, Xocavənd, Xocalı rayonlarından və Şuşa ətrafındakı ərazilərdən keçib. Snayper silahından sərrast atəşlə erməni işğalçılarına qan uddurub. Göstərilən istiqamətlərdə azad edilmiş ərazilərimizin müdafiəsi, təcavüzkardan qalmış silah-sursatın, texnikanın axtarılması, düşmənin diversiya-kəşfiyyat qruplarının mövqelərimizin ətrafına sızmasının qarşısının alınması və hücum əməliyyatlarında Orxan öndə gedib, qətiyyətlə vuruşub.

Noyabrın 6-dan 7-nə keçən gecə isə Şuşa istiqamətində irəliləyən döyüşçülərimizin bir qrupuna Laçın-Şuşa yolunu bağlamaq, bu istiqamətdən düşmənin təminatını kəsmək tapşırığı verilib. Onlar yolu nəzarətə götürməyə imkan verən mühüm yüksəkliyi ələ keçirərək ərazidə mövqeləniblər. İşğalçıların həmin yüksəkliyi geri almaq və yolu açmaq cəhdləri dəf edilib. Düşmən buna cavab olaraq yüksəklikdəki mövqelərimizi artilleriyadan və tanklardan şiddətli atəşə tutub. Sözügedən yüksəklik növbəti dəfə intensiv atəşə məruz qalarkən çavuş O.Ömərov bir neçə silahdaşı ilə birlikdə şəhidlik məqamına ucalıb. 2020-ci il noyabrın 11-də Qonaqkənd qəsəbəsinin qəbiristanlığında atasının məzarı yanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin Azərbaycan Respublikası Müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli əmri ilə çavuş O.Ömərov ölümündən sonra “Vətən uğrunda”, “Şuşanın azad olunmasına görə” və “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medallarla təltif edilib.

Qonaqkənd qəsəbəsində şəhid xüsusi təyinatlının adına küçə var. Ailəsinin yaşadığı evdə isə xatirə guşəsi düzəldilib. Xaçmaz şəhərindəki Abamüslüm Səlimov adına 7 saylı tam orta məktəbin 3b sinfinə Orxanın adı verilib. “Qələbə şəhidləri” və “Quba şəhidlərinin ev muzeyləri” kitablarında Orxan haqqında məlumatlar dərc olunub.

Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçuların xatirələri ehtiramla anılır, onların ailə üzvlərinə dərin rəğbət və hörmət nümayiş etdirilir. Şəhidlərin həyatı və şücaət, mərdlik, qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyəti gənclərə örnək göstərilir. Vətən naminə şəhadətə ucalan saf mənəviyyatlı oğul kimi Orxan da daim ehtiramla anılacaqdır.

**kapitan Xədicə Hacızadə**

## TƏLİMATÇI-PSİXOLOQLARLA METODİKİ-TƏLİM TOPLANIŞI KEÇİRİLİB

İyunun 9-da 25031 saylı hərbi hissədə Hərbi İnstitutun və hərbi hissələrin təlimatçı-psixoloqları ilə metodiki-təlim toplanışı keçirilib. Toplanışa ümumilikdə 14 nəfər təlimatçı-psixoloq cəlb olunub.



Məşğələ cədvəlinə uyğun olaraq, “Psixoloji yardımlar və ona təsir göstərən psixososial maneələr”, “Sağlamlıq üçün zərərli vərdişlərin xüsusiyyətləri. Bu kimi halların profilaktikası üzrə psixoloqların fəaliyyəti”, “Hərbi qulluqçular arasında kritik vəziyyətlər və onun formaları. İntihara və özünəqəsdə səbəb olan halların qarşısının alınması məqsədilə həyata keçiriləcək profilaktik tədbirlər” mövzuları üzrə metodiki və praktiki məşğələlər keçirilib. Bundan əlavə, təlimatçı-psixoloqların bilik və bacarıqlarının artırılması və təkmilləşdirilməsi məqsədilə toplanışa onların peşəkar fəaliyyətinə aid Xətai rayon Psixodinamika reabilitasiya mərkəzinin psixoloqu Könül Abbasova və Daxili Qoşunların qospitalından tibb xidməti mayoru Şükufə Məmmədova dəvət olunub, “Emosional yanma. Böhranlı (krizis) situasiyalarda psixoloji yardımın təşkili” və “Əsgərin psixoloji durumunun analizi. Hərbi qulluqçuların psixi gərginliyinin və pozğunluqlarının yaranma səbəbləri və əlamətləri” mövzularında məruzələr dinlənilib.

Toplanış zamanı təlimatçı-psixoloqlardan daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında psixoloji işin təşkili və aparılması haqqında Təlimat”ın tələblərinin öyrənilməsi üzrə məqbullar qəbul edilib.

Toplanışın yekununda şəxsi heyət üzrə idarə rəisinin müavini-mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Zamin Rəsulov iştirak edib, tərbiyə işləri üzrə bölmənin təlimatçı-



psixoloqlarına Hərbi İnstitutda və hərbi hissələrdə psixoloji xidmətin daha da keyfiyyətli və səmərəli təşkili, aparılması üçün müvafiq tapşırıqlar verib, həmçinin daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının tələb və tövsiyələrini çatdırıb.

**kapitan Şahin Cəfərzadə**

## 17074 SAYLI HƏRBİ HİSSƏNİN QABAQCIL BÖLMƏSİ

Hərbi hissələrimizdə döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Bu baxımdan hər dəfə xidməti ezamiyyətdə olarkən



bu sahəylə maraqlanmağımız qarşımızda duran prioritetlərdən biridir.



Xidməti tapşırığa əsasən, 17074 saylı hərbi hissəyə ezamiyyətim zamanı komandiri mayor Seymur Mehralıyevin olduğu xüsusi vasitələrin tətbiqi dəstəsinin fəaliyyəti ilə tanış oldum. Hərbi hissə komandiri tərəfindən xidməti-döyüş fəaliyyəti müsbət qiymətləndirilən bölmə haqqında danışarkən mayor S.Mehralıyev bildirdi ki, dəstənin döyüş hazırlığının yüksəldilməsi üçün şəxsi heyətin döyüş təliminin metodiki cəhətdən düzgün keçirilməsi, mənəvi-psixoloji durumun yüksək olması, hərtərəfli təminatın mövcudluğu qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə zəmin yaradır. Bölməyə təhkim olunmuş döyüş texnikasının, sursatların və digər əmlakların vəziyyətinin daima diqqətdə saxlanılması, daxili qayda-qanuna riayət edilməsi də bu istiqamətdə əsas amillərdən biridir. Bölmənin döyüş və ictimai-siyasi hazırlığına, tərbiyəsinə, hərbi intizamına, bölmədə daxili qayda-qanuna riayət edilməsinə və bölmənin qarşısına qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə cavabdehlik daşıyan komandir üzərilərinə düşən vəzifələrin icrasına hər zaman hazır olduqlarını nəzərimizə çatdırdı. Qeyd edək ki, xüsusi vasitələrin tətbiqi dəstəsi qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən yüksək peşəkarlıq nümayiş etdirməyi bacarır.

Şəxsi heyətin nəzəri biliyinin və döyüş hazırlığının artırılması məqsədilə tərtib olunmuş məşğələ cədvəlinə əsasən hərbi qulluqçularla ictimai-siyasi hazırlıq, sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq, ixtisas hazırlığından məşğələlər təşkil olunur. Məşğələlərin keçirilməsində qrup və yarımqrup komandirlərinin biliklərinin hərbçilər tərəfindən dərindən qavranılması əsas götürülür. Atəş hazırlığından, fiziki hazırlıqdan, Daxili Qoşunların taktiki hazırlığından və ixtisas hazırlığından yüksək nəticələr əldə edən şəxsi heyət döyüş hazırlığının qorunub saxlanılması istiqamətində öz üzərində durmadan çalışır. Hər həftənin beşinci günü hərbi qulluqçuların peşəkarlıq vərdişlərinin artırılması və eyni zamanda, istənilən şəraitdə qarşıya çıxan döyüş tapşırıqlarının keyfiyyətlə icrası məqsədilə gecə təlimləri keçirilir. Bölmə komandiri şəxsi heyətin biliklərini və praktiki vərdişlərini şəxsən yoxlayır, hərbi qulluqçuların düzgün yerləşdirilməsini, ciddi daxili qayda-qanunun olmasını, nizamnamələrin tələblərinə riayət edilməsini nəzarətdə saxlayır. Bölmənin qruplarında olan silahların, xüsusi silahların, xüsusi vasitələrin, texnikanın material hissələrini, qorunub saxlanılmasını və onlardan düzgün istifadə edilməsi qaydalarını bilmək və sayını, vəziyyətini, döyüşə hazırlığını, üç ayda bir dəfədən az olmayaraq şəxsən onların uçotunun aparılmasını yoxlamaq dəstə komandirinin funksional vəzifələrinə aiddir.

Həmçinin vəzifələrindən danışarkən tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan müsahibim bölmənin şəxsi heyətilə yüksək nizam-intizama nail olmaq və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını bildirdi: “Bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Emin Quliyevin əməyini xüsusilə vurğulamaq lazımdır. O, hərbi qulluqçuların mənəvi-psixoloji durumunun yüksəldilməsi istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Təbii ki, döyüş hazırlığından danışarkən mütləq mənada mənəvi-psixoloji durumun qənaətbəxş olmasının vacibliyini hər birimiz bilirik. Eyni zamanda, əmr və direktivlərin tələblərinə əsasən döyüş hazırlığının yüksəldilməsi üçün hərbi qulluqçuların keçirilən məşğələlərdə tam tərkibdə iştirakına və məşğələlərin dərindən mənimsənilməsinə nəzarət edir”.



Məşğələlərin plan-konspektlərinin hazırlanmasında və hərbi qulluqçuların tərbiyəsi işində xüsusi



vasitələrin tətbiqi bölməsinin komandiri kapitan Məhəmməd Hüseynovun zəhmətini qeyd edən mayor S.Mehralıyev hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi dəstəsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə, qarşıya qoyulan tapşırıqların icrası zamanı təşəbbüskarlıq göstərəcəyinə əminliyini ifadə etdi.

**kapitan Nigar Ağayeva**

*İdman*

## ÇOXNÖVÇÜLÜK ÜZRƏ YARIŞIN NƏTİCƏLƏRİ MƏLUM OLUB

“2026-cı ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı”na və daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmrinə əsasən, iyun ayının 12-də Hərbi İnstitutda Daxili Qoşunların birinciliyi uğrunda çoxnövçülük üzrə yarış keçirilib. Yarışda Hərbi İnstitut, 99713, 67987, 16075, 25031 və 16076 saylı hərbi hissələrdən 6 komanda olmaqla, ümumilikdə 36 nəfər hərbi qulluqçu iştirak edib. Şəxsi və komanda birinciliyi uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:

**100 m məsafəyə qaçış üzrə:**
I yer - çavuş Muxtar Qasımov (99713 saylı hərbi hissə);
II yer - çavuş Hüseyn Ağayev (99713 saylı hərbi hissə);
III yer - çavuş Fərid Hüseynov (99713 saylı hərbi hissə).

**1000 m məsafəyə qaçış üzrə:**
I yer - kursant Əvəz Abdıyev (Hərbi İnstitut);
II yer - çavuş Famil Məmmədov (67987 saylı hərbi hissə);
III yer - çavuş Fərid Hüseynov (99713 saylı hərbi hissə).

**Gimnastika üzrə:**
I yer - kapitan İsmayıl Qasımov (67987 saylı hərbi hissə);
II yer - çavuş Rauf Abdullayev (16075 saylı hərbi hissə);
III yer - gizir Ruslan Əmrahlı (16075 saylı hərbi hissə).

Komandalar üzrə nəticələrə gəldikdə, 1-ci yeri 99713 saylı hərbi hissə qazanıb. Hərbi İnstitut və 16075 saylı hərbi hissə isə 2-ci və 3-cü yerlərə layiq görülüb. 99713 saylı hərbi hissənin komandası Kubok və diplomla, Hərbi İnstitut və 16075 saylı hərbi hissənin komandaları isə diplomla mükafatlandırılıblar.




**kapitan Xədicə Hacızadə**

## ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunların hərbi hissələrində şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb personalının əməyi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan hissələrdə öz vəzifələrinin icrası istiqamətində səylə çalışan tibb personalının xidməti fəaliyyətini vaxtaşırı qəzetimizin səhifələrində işıqlandırırıq.

17074 saylı hərbi hissədə olarkən məhz tibb personalının xidməti haqqında yazmaq qərarına gəldim. Hərbi hissənin tibb xidmətinin rəisi tibb xidməti mayoru Zaira Sodiyeva hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. O, öz işini “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında” Təlimata əsasən qurur. Xidmətin fəaliyyətindən bəhs edərkən bildirdi ki, hərbi hissə komandiri tərəfindən təsdiq olunmuş günün nizam qaydalarına uyğun olaraq tibb məntəqəsinin və lazaretin fəaliyyəti təşkil olunur. Xəstələrin ambulator qəbulu, stasionar xəstələrin müvafiq təyinatlarının icrası, qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların gündəlik tibbi müayinələrinin təşkili, yeməkxanada sanitar-gigiyenik vəziyyətin yoxlanılması təşkil olunur.

Hərbi hissənin tibbi təminatının təşkilinə, tibb məntəqəsinin vəziyyətinə və işinə, xidmətin şəxsi heyətinin öz ixtisası üzrə hazırlığına, döyüş və ictimai-siyasi hazırlığına, hərbi intizamına və mənəvi vəziyyətinə cavabdehlik daşıyan tibb xidməti mayoru Z.Sodiyeva qeyd etdi ki, xidmət rəisi kimi əsas məqsədi şəxsi heyətin sağlamlığını qorumaq, müraciət edən hər bir hərbi qulluqçuya dərhal yardım göstərmək, ilkin tibbi yardımı keyfiyyətli surətdə həyata keçirməkdən ibarətdir: “Tabeliyimdə olan hərbi qulluqçular üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Kollektivimiz “Sağlam bədəndə sağlam ruh olar” şüarı ilə xidmət aparır. Sağlamlığın əsasında isə şəxsi gigiyenanın gözlənilməsi, düzgün qidalanma, hər hansı bir narahatçılığa dərhal reaksiya verərək, həkimə müraciət etmək durur. Məhz bu mövzuda bütün hərbi qulluqçularla tibb xidməti tərəfindən maarifləndirmə işləri aparılır. Görülən işlərdə tibb xidmətinin tibb məntəqəsinin feldşeri gizir Sevinc Qostiyeva, tibb xidmətinin tibb məntəqəsinin sanitar təlimatçı-dezinfektoru baş çavuş Məhəmməd Batarayevin əməklərini vurğulamaq lazımdır”.



Tibb xidmətindən danışarkən təkcə xidmət rəisinin deyil, peşəkar personalın uğurlu fəaliyyətini qeyd etmək lazımdır. Kollektivin əzmkarlığı nəticəsində hərbi qulluqçulara olan diqqət və qayğı günü-gündən artır.

Şəxsi heyətin sağlamlığının qorunması və döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə hərbi hissədə mütəmadi olaraq dezinfeksiya işləri aparılır. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının gigiyena qaydalarına düzgün riayət etmələrinə növbətçi həkim nəzarət edir. Xidmət rəisi həmçinin müddətli hərbi qulluqçulara göstərdikləri qayğıya görə xüsusilə fərqlənən xüsusi vasitələrin tətbiqi dəstəsinin sanitar-təlimatçısı gizir Daşqın Məmmədov və xüsusi təyinatlı dəstənin sanitar-təlimatçısı baş çavuş Əlizamin Cəfərovun zəhmətini yüksək qiymətləndirdi, onların üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiklərini nəzərimizə çatdırdı.

Son olaraq qeyd etmək lazımdır ki, hazırda 17074 saylı hərbi hissənin şəxsi heyətinin sağlamlığının qorunub saxlanılması üçün tibb xidməti bütün zəruri tədbirləri yüksək peşəkarlıqla həyata keçirir. Bir sözlə, hərbi qulluqçuların sağlıq durumu əmin əllərdədir.



**kapitan Nigar Ağayeva**

## ŞƏXSİ HEYƏTİN KEYFİYYƏTLİ VƏ KALORİLİ QİDALANMASI TƏMİN OLUNUR



Daxili Qoşunların komandanlığının diqqət yetirdiyi əsas sahələrdən biri şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlıqlarının qorunması və səhhətlərinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

16076 saylı hərbi hissənin maddi-texniki təminat xidmətlərinin ərzaq və əşya xidmətinin rəisi baş leytenant Əli Həsənov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları”na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş “Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə”yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin qaydalara uyğun hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlıqlarının qarşıya qoyduqları ən vacib tapşırıqlardandır. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.

Baş leytenant Ə.Həsənov şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə məlumat verdi. Qeyd etdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq onlar mövsümi salatlar və meyvə şirələri ilə də təmin olunurlar. Şəxsi heyətin qidalanması həftəlik bölgü cədvəlinə əsasən təşkil edilir. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Zabit görülən işlərdə təminat manqasının komandiri - baş aşpaz çavuş Ramil Alxasovun zəhmətini xüsusilə vurğuladı. Onun öz vəzifələrinin öhdəsindən layiqincə gəldiyini, gigiyena qaydalarına ciddi əməl olunması üçün əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında işçi - aşpazlardan Şölə Hüseynova, Kəmalə Novruzova, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından isə əsgərlər Cavidan Məmişov, Kamal Əliyev və Tural Yusublunun adlarını çəkdi, fəaliyyətlərini müsbət xarakterizə etdi.



**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

## “YOL HƏRƏKƏTİNDƏ İŞTİRAK EDƏN SÜRÜCÜ QAYDALARA RİAYƏT ETMƏKLƏ ÖZÜNÜN ŞƏXSİ MƏDƏNİYYƏTİNİ NÜMAYİŞ ETDİRMİŞ OLUR”

Hər birimizə məlumdur ki, istənilən hərbi hissədə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, verilən tapşırıqların uğurla yerinə yetirilməsini şərtləndirən əsas amillərdən biri avtomobil və zirehli texnikanın məharətlə idarə edilməsidir. Məhz bu səbəbdən şəxsi heyətin, habelə xüsusi yüklərin vaxtlı-vaxtında çatdırılmasında peşəkar sürücü hərbi qulluqçuların rolu böyükdür.

Belə sürücülərdən biri də, 17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin avtomobil yarımqrupunun sürücüsü baş çavuş Şaiq Rəsulzadədir. Dəstə komandiri polkovnik-leytenant Elşad Qasımov tərəfindən müsbət xarakterizə olunan sürücü intizamlı, işgüzar və bacarıqlıdır. Xidmət etdiyi bölmənin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında onun da özünəməxsus rolu var. Qarşısına qoyulan tapşırıqların vaxtında, keyfiyyətlə yerinə yetirilməsi üçün əzmkarlıq nümayiş etdirir. Ekstremal vəziyyətlərdə dəqiq, düzgün və qətiyyətli hərəkətlər edir. Gündəlik xidmətində rəhbəredici sənədlərin tələblərinə əsaslanır. Öz nəzəri və praktiki biliklərinin, metodiki hazırlığının artırılması istiqamətində daim çalışır. Atəş hazırlığı məşğələlərində və atışlarda təhlükəsizlik qaydalarına əməl edir. Komandirlərin tələb və tövsiyələrindən düzgün nəticə çıxarır, xidmətində nöqsanların olmaması üçün əlindən gələni edir. Tapşırıqları vaxtında və düzgün icra etdiyinə, funksional vəzifələrinə məsuliyyətlə yanaşdığına görə dəfələrlə bölmə və hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb.



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Ş.Rəsulzadə 1992-ci il mayın 20-də Bərdə rayonunun Mollaəhmədli kəndində doğulub. Orta təhsilini Gülgəzli kəndində yerləşən Rəfail Hüseynov adına tam orta məktəbdə alan Şaiq həmin məktəbi 2009-cu ildə bitirib. 2010-2012-ci illərdə Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Əsgəri xidmətdə olarkən kiçik çavuş rütbəsində manqa komandiri olub.

2012-ci ilin oktyabr ayından Daxili Qoşunların 17074 saylı hərbi hissəsində xidmət edir. Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra edən hərbi qulluqçumuz şəxsi heyətin hörmətini qazanıb. Vətən müharibəsi və lokal xarakterli antiterror əməliyyatının iştirakçısıdır.

Baş çavuş Ş.Rəsulzadə düşünür ki, hər bir sürücünün nəqliyyat vasitələrini müxtəlif hava və yol şəraitlərində idarəetmə bacarığı olmalıdır: “Müasir dövrdə hərəkətin intensivliyinin artması ilə əlaqədar olaraq sürücülər qarşısında yüksək tələblər qoyulur. Sürücü nəinki yol hərəkəti qaydalarını bilməli, həm də mürəkkəb şəraitdə sərbəst hərəkət etməyi, hərəkətin digər iştirakçılarına, xüsusilə də piyadalara qarşı çox diqqətli və ehtiyatlı olmağı bacarmalıdır. Yol hərəkətində iştirak edən hər bir sürücü bilməlidir ki, o, qaydalara riayət etməklə ətrafındakı insanlara münasibətini və özünün şəxsi mədəniyyətini nümayiş etdirmiş olur”.

**kapitan Nigar Ağayeva**

## GÜNDƏLİK XİDMƏTİNİ TƏLƏBLƏRƏ UYĞUN TƏŞKİL EDƏN RADİOTELEFONÇU

16073 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Zamin Həşimzadədir. O, 2003-cü ilin iyul ayının 19-da Lənkəran rayonunun Viyən kəndində anadan olub. Orta təhsilini doğulub boya-başa çatdığı kənddə yerləşən tam orta məktəbdə alıb. 2025-ci ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb.

25031 saylı hərbi hissədə hərbi xidmətə başlayıb. 2025-ci ilin may ayından avqust ayınadək 25032 saylı hərbi hissədə rabitəçi kursunu keçib. Hazırda təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsində xidmətini davam etdirir. Əsgər Z.Həşimzadə bacarıqlı, nizam-intizamlıdır, hər zaman öz üzərində işləyir, biliklərini artırmağa çalışır. Qarşısına qoyulan tapşırıqların icrasına məsuliyyətlə yanaşır. Hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil edir. Nümunəvi xidmətinə görə həm hərbi hissə, həm də bölük komandiri tərəfindən mükafatlandırılıb.



Radiotelefonçu bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur. Gündəlik olaraq Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissənin bölmələri ilə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.

Hərbi hissənin təminat bölüyünün rabitə taqımının komandiri leytenant Kənan Məmmədli də əsgər Z.Həşimzadəni müsbət xarakterizə edərək, onun vəzifə borclarını vicdanla icra etdiyini, şəxsi keyfiyyətləri ilə yoldaşlarına nümunə olduğunu söylədi.

Hərbi qulluqçumuza xidmətində uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR

*-YENİLİKLƏR-*

### “Roketsan” şirkətinin istehsal etdiyi L-OMTAS lazerlə idarəolunan ortamənzilli tank əleyhinə raket kompleksinin qəbul atış sınağı keçirilib

“Poliqon”un “Roketsan”a istinadən verdiyi xəbərə görə, sınaq zamanı hədəfi tam dəqiqliklə vuran L-OMTAS əməliyyat qabiliyyətini bir daha sübut edib.

Bildirilib ki, şirkət üstün hədəfləmə və zərbə imkanlarına malik sistemləri ilə Türkiyə Silahlı Qüvvələrinin döyüş meydanındakı çəkindiricilik gücünü artırmağa davam edəcək.

L-OMTAS yüksək dəqiqlikli lazer tuşlaması və zireh dələn tandem döyüş başlığı ilə əməliyyat meydanında zirehli hədəflərə qarşı mükəmməl həll təqdim edir. Atışdan əvvəl və ya sonra hədəfə kilidlənə bilən raket sistemi həm sabit, həm də hərəkətli hədəflərə qarşı effektivdir. Üçayaqlı ştativ üzərindən istifadə olunan L-OMTAS eyni zamanda quru platformalarının qüllələrinə də inteqrasiya edilə bilər.




*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Şahin Cəfərzadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000